# Başını uca tut, ana!

*Ey şəhid oğlu şəhid,*
*istəmə məndən məqbər,*
*Sənə ağuşunu açmış*
*duruyor Peyğəmbər!*

Həyata ən gözəl şəkildə əlvida deməyin adıdır şəhid olmaq. Mahir Hüseynov da həyatla bu cür vidalaşanlardandır... O, 1968-ci ildə Qəbələ rayonunun Bum kəndində dünyaya gəlib. Ali təhsil aldıqdan sonra sovet ordusu sıralarında qulluq edib. 1992-ci ildə erməni qəsbkarlarının özbaşınalığına dözməyib və könüllü olaraq Ağdərədəki "N" saylı hərbi hissənin tərkibinə yazılıb. Ağır döyüşlərin birində Mahir Hüseynov itkin düşüb və qəhrəman əsgərimizə şəhidlik statusu verilib. Bəli, mərd eloğlumuz vətənin azadlığı yolunda canını qurban verərək şəhidlik zirvəsinə ucalıb.



Qəhrəmanlar unudulmadığı üçün biz qəbələlilər də vətəni uğrunda canından keçən əsgərlərimizi heç vaxt unutmuruq. Anası Şərqiyyə Abdusalam qızı bu ağır itkiyə çətinliklə dözsə də başını uca tutur. Çünki Mahir bu gün bütövlükdə Azərbaycan xalqının oğludur. Şərqiyyə ana oğlunun əziz xatirəsinə "Mürşüd" qəbirstanlığına bulaq çəkdirib. Lövhəyə şəhidin şəkli həkk olunmuş, aşağısına isə Şərqiyyə ananın ürək sözləri yazılmışdır.

Başını uca tut, Şərqiyyə ana! Şəhidlər heç vaxt ölmürlər, onlar ürəklərdə əbədi yaşayırlar.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü,**
**"Qızıl Qələm" media mükafatı laureatı.**

# Muğam və Musiqi Günü

2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara musiqisi festivalının rəhbərliyi tərəfindən qəbul olunan qərara əsasən avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğam və Musiqisi Günü kimi qeyd olunur. Bu tarix muğamsevərlər, ömrünü bu sənətin yaşamasına və təbliğinə həsr edənlər üçün ən əziz bayramdır.

Azərbaycan muğamının müasir tarixində ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Son illər muğam



ifaçılığı ən müxtəlif aspektlərdən hərtərəfli dəstək alaraq, sözün əsl mənasında, intibah dövrünü yaşayır. UNESCO-nun qərarı ilə dünya mədəniyyətinin qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik sərvətləri sırasına daxil edilməsi muğamın, tar ifaçılığı sənətinin təkcə xalqımızın deyil, bütün bəşəriyyətin misilsiz mədəni sərvətinin ayrılmaz hissəsi kimi qiymətləndirilməsidir.

Heyrətamiz hisslər, düşüncələr, müdriklik mənbəyi olan muğam bütün hallarda - qüssəli, sevincli anlarımızda ovqatımıza təsir edir, azadlığa və müstəqilliyə qovuşduğumuz anların fərəhini yaşadır və bizləri qələbəyə səsləyir.

*Maraqlı faktlar*

# Dünya xalqlarının qəribə inancları

**Seneqal**

Seneqalda insanların səyahət planlarını özündə saxlamalı olduqları söylənilir. Belə ki, burada hesab edili rki, bu barədə kiməsə danışsanız, planlarınız pozulacaq.

**Almaniya**

Almaniyada içərisində su olan qədəhləri bir-birinə vurmaqdan qorxurlar, belə ki, belə hesab edirlər ki, bu şəkildə içkini birlikdə içdiyiniz insana ölüm arzulayırsınız.

**Cənubi Koreya**

Cənubi Koreyada hesab edilir ki, qapalı otaqda yatarkən ventilyatoru yanılı vəziyyətdə saxlamaq öldürücü təhlükə kəsb edir.

Bu ölkədə ventilyatoru yalnız pəncərələr açıq vəziyyətdə olarkən işlədirlər.

**Braziliya**

Braziliyada çantanı döşəməyə qoymaq olmaz, əks halda, guya, həmin çantanın sahibi kasıblaşacaq.

**Danimarka**

Danimarkada qırılan boşqabları il boyu saxlayır, Yeni il ərəfəsində onları dostlar və qohumların qapılarının altına qoyurlar.

Hesab edilir ki, qapı altında farfor nə qədər çox olarsa, həmin il bir o qədər xoşbəxtlik içində keçər.

**Şimali Amerika**

Şimali Amerikada çatın üzərinə çıxmaq pis əlamət hesab edilir. Hətta bəzi yerlərdə inanırlar ki, bunu etsələr, analarının beli qırılacaq.

**Portuqaliya**

Portuqaliyada geri-geri getmirlər, belə ki, şeytanın addımları yadda saxlaya biləcəyini düşünürlər.

**Misir**

Misirdə qayçını heç bir iş görülmədiyi halda hərəkət etdirmək çox pis əlamət hesab edilir. Onu açıq vəziyyətdə saxlamaq isə daha pisdir. Guya, belə olduğu halda, pis ruhları havada "kəsirsiniz" və onlar bundan qəzəblənirlər.

**Bolqarıstan**

Burada inanırlar ki, üzərinizə quş peyininin düşməsi yaxşı əlamətdir.

**İtaliya**

İtaliyada bir çoxları ayın 17-si cümə gününə düşdükdə qorxur. Belə ki, 17-nin rum rəqəmi ilə ifadəsi (XVII) latın sözü olan VIXIdəki ("Mənim həyatım bitdi") hərflərdən ibarətdir.


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə Mirzəbəyli kənd sakini **Ramazanov Kamal Məmmədhəsən oğluna** verilmiş JN seriyalı 124 nömrəli (kod 40613018) **torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının DİSPLAY-ının 28 oktyabr 1998-ci il tarixli DİSPLAY 19 saylı qərarı ilə Vəndam qəsəbə sakini **Aslanov Xandəmir Tapdıq oğluna** verilmiş JN seriyalı 934 F nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

İsmayıllı Rayon Aqrar İslahat Komissiyasının 18 mart 1998-ci il tarixli 44 nömrəli qərarı ilə Rusan kənd sakini **Nəzərova Maya Hüseyn qızına** verilmiş JN seriyalı 0085 nömrəli (kod 40721018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Böyük Pirəli kənd sakini **Malıyev Eldəniz Musa oğluna oğluna** verilmiş JN seriyalı 0067 nömrəli (kod 40602018) **torpağın mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 nömrəli qərarı ilə Vəndam kənd sakini **Ağayev Armais İsaq oğluna** verilmiş JN seriyalı 1340 nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** və 28 oktyabr 1998-ci il tarixli 19 nömrəli qərarı ilə verilmiş JN seriyalı 1156A (kod 40600048) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 19 yanvar 1998-ci il tarixli 13 nömrəli qərarı ilə Hacallı kənd sakini **Orucova Mənsurə Malik qızına** verilmiş JN seriyalı 0016 nömrəli (kod 40604018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin Qəbələ Ərazi idarəsi tərəfindən Kiçik Əmili kənd sakini **Mustafayev Səbuhi Yusif oğluna** 03 sentyabr 2018-ci il tarixdə verilmiş RX seriyalı 1372784 nömrəli (reyestr nömrəsi 406013063088, qeydiyyat nömrəsi 1918007247) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 fevral 1999-cu il tarixli 04 nömrəli qərarı ilə Nic kənd sakini **Əliyev Nazim Mədət oğluna** verilmiş JN seriyalı 137 F nömrəli (kod 40600068) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Məmmədağalı kənd sakini **Ağayev Aydın Ağarəhim oğluna** verilmiş JN seriyalı 0081 nömrəli (kod 40603048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11nömrəli qərarı ilə Yemişanlı kənd sakini **Qasımov Dəyanət Ərziman oğluna** verilmiş JN seriyalı 0092 nömrəli (kod 40615048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 nömrəli qərarı ilə Qəbələ şəhər sakini **Məmmədov Süleyman Əlirza oğluna** verilmiş JN seriyalı 1234F nömrəli (kod 40601004) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** aktı itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 14 noyabr 2002-ci il tarixli 11 saylı qərarı ilə Qutqaşınlı kənd sakini **Qafarova Nazilə Mirzəmməd qızına** verilmiş JN seriyalı 114 nömrəli (kod 40601004) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin Qəbələ Ərazi idarəsi tərəfindən Çarxana kənd sakini **Əliyev Aslan Şaban oğluna** 18 iyun 2013-cü il tarixdə verilmiş RX seriyalı 0182826 nömrəli (reyestr nömrəsi 406013012918-10301, qeydiyyat nömrəsi 1913004164) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət reyestrindən çıxarış** və həmin əmlakın **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin Qəbələ Ərazi idarəsi tərəfindən Bunud kənd sakini **Bağırova Sərmayə Qazı qızına** 01 noyabr 2014-cü il tarixdə verilmiş RX seriyalı 0520332 nömrəli (reyestr nömrəsi 406013059531, qeydiyyat nömrəsi 1914008125) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət reyestrindən çıxarış** və 26 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə verilmiş JN seriyalı 177 nömrəli (kod 40603018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ rayon Bum qəsəbə sakini **Məmmədov Rüstəm Əliyar oğluna** məxsus 99-EU-036 dövlət nişanlı priora markalı avtomobilin **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin Qəbələ Ərazi idarəsi tərəfindən Qəbələ şəhər sakini **Əhmədov Çingiz Səbzi oğluna** 28 sentyabr 2017-ci il tarixdə verilmiş RX seriyalı 1120543 nömrəli (reyestr nömrəsi 406013064365, qeydiyyat nömrəsi 1917006651) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 08 dekabr 1997-ci il tarixli 27 saylı qərarı ilə Laza kənd sakini **Həmidova Seyran Ədil qızına** verilmiş JN seriyalı 034F nömrəli (kod 40611018) **torpağın mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1500*